

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Bakıdan Trabzona könül yolu

## Təəssürat anlamlı yol qeydləri

**(əvvəli ötən sayımızda)**

**Bu da Trabzon... Türk qardaşlarımın dediyi kimi, şəhərin iç və dış istiqamətdə hərəkət edən avtobuslarının dayandığı məkan. Yol çantamı götürüb avtobusa minirəm... Doğrusunu deyim ki, bura qədər olan səfərdə "Metro" şirkətinin heç də xoş xatirə olmayan xidməti ürəyimin bir küncündə ilişib qaldı. Özümə söz verdim ki, bir daha "Metro"ya üz tutmayacam, dost-tanışa da tövsiyə edəcəm ki, o səmtə yön çevirməsinlər. Nə isə...**

Avtovağzalda məni gözləyən can dostum, qardaşım Əhməd Varolla bir-birimizə sarılırıq. Yəqin bilirsiniz də, Türkiyədə dostlar görüşəndə alınlarını bir-birinə toxundururlar. Amma biz həm alınlarımızı toxundurduq, həm də bir-birimizə sarılıb ürəklərimizi görüşdürdük.Yaddaşdan iti olan oxucularım, dostlarım bilirlər ki, Əhməd Varol mənim nəzərimdə Yer üzündəki mələklərdən biridir. Bu İNSAN qədər diqqətcil, həssas, qayğıkeş, həm də sözün bütün mənalarında insanın iç dünyasını görə bilən başqa bir kimsəni tanımıram. O, doğulduğu torpağı sevdiyi kimi, ailəsini sevdiyi kimi dostlarını da sevir. Heç vaxt onlara nəinsə fikrini, qayğısını çəkmək, nəyinsə narahatlığını yaşamaq imkanı verməyək. Dilin tərpənməmiş nə deyəcəyini anlayır. Və bir də elə bir mühit yaradır ki, sıxılmırsan, onun qayğısından narahatlıq hissi keçirmirsən. Bax, bu mənada mən Əhməd qardaşımdan həm Bakıda, həm Trabzonda müxtəlif tədbirlərdə keçirdiyim, həm də ailəvi görüşlərdə yaşadığım anları ömrümün Qızıl Günləri sayıram. Hətta hər görüşümüzdən sonra misralara çevrilən duyğularım belə içimi rahatlamır. Ona görə ki, mən Əhməd əfəndimlə yaşanan anların bütün çalarlarını hələki ifadə edə bilməmişəm. İndi də onun şəhərin bu şehli çağında üz-üzə dayanıb hal-əhval etdiyim anda könlümdən keçən misraların kağıza köçürülməsi anını da bir növü yaddaş kartına atıram.

**Trabzonda**
**Universitet məhəlləsində**
**Əhməd Varolun**
**Muxtarlığında**
**yazın oğlan çağında**
**əyləşmək,**
**çay içmək**
**və şirin söhbətdə**
**etiraf etmək**
**qardaşlığımızın**
**Allahdan nəsib olduğunu! -**
**necə də gözəldi**
**deyirəm bu gün**
**bu dostluq, bu qardaşlıq**
**anlayan üçün...**

Üz-üzə oturmuşuq. Şamxal zümzümə edir, mən isə bilgisayara diqtə. Qəribədir ki, onun züm-zümə etdiyi mahnı da indiki anda ruhuma uyğun gəlir. Çünki o da itirilən anların, qədrini bilmədiyimiz zamanın notlarını vurğulayır. Mən də onun dediyinə şərik olaraq "ömrü çiçək qədər olan" sevgilərin, istəklərin acısını unuda bilmirəm. Qarabağlı günlərimi, orada yaşadıqlarımı və o torpağın indi müsafiri olduğum şəhərin bənzəri olması məni haldan-hala salır.



Bunu yaxşı bilən Əhməd qardaşım da məni kövrək duyğuların əlindən almaq üçün mövzunu dəyişir. Bildirir ki, gəl gedək "Sahil testləri"nə. Sənin üçün orada yer tutmuşam. Dənizin sahilində bir az yolun yorğunluğunu canından çıxar. Özünü gümrah hiss edəndə mənə telefon aç, gəlim birlikdə qəlyanaltı edək.

... Belə də edirik. O məni universitetin nəzdində olan həmin ünvana gətirir. Bir neçə dəfə o ünvanı gəzib-dolaşmışam. Qara dənizin ləpədöyənində, yaşıllıqlar içərisindəki sahil testləri. Dənizdə qabarmalar olanda ləpələr az qalır ki, binanın pəncərələrinə gəlib toxunsun. Saatlarla oturub burda dənizi dinləmişəm. Suya düşən iynəni də görmək mümkün olan bu ərazidə bir tullantıya, bir çöpə də rast gəlmək mümkün deyil. Ləpələr o qədər həzin və diqqətçəkən olur ki, hər dəfə sahildən üzü geri qayıdanda mənim gözümü də, özümü də özüylə aparır. Hərdən içimdə qısqanclıq hissi də baş qaldırır. Özümü, öz ətrafımdakıları qınayıram, şəhərini, dənizini sevən trabzonlularla müqayisədə. Bu insanlar necə də vurğundular torpaqlarına, dənizlərinə. Və bu vurğunluq da təbiidi, görüntü deyil. Mən də bu vurğunluqdan ilhamlanıb vərəqlərə piçıldamışdım.



**Trabzonda**
**adamlar**
**Qara dəniz kimi**
**üzdə sakit**
**içdə çılğın...**
**Baxışlar dupduru -**
**aydın**
**məhəbbət**
**və nifrət**
**ortada...**
**Burada**
**hər şey**
**necə yaranıbsa**
**elə**
**olduğu kimidir**
**heç nə deyil ilğım...**
**Trabzonda**
**adamlar və**
**Qara dəniz**
**çılğındı**
**vallah, çılğın!**

Əhməd bəy məni "Sahil testləri"ndə ayarladığı odada qoyub gedəndən sonra əl-üzümə bir ovuc göz yaşından duru su çırpıb dənizin sahilinə enirəm. Hər dəfə bu şəhərdə olanda əyləşdiyim qayanın üstünü çıxıram. Necə deyərlər, öz yerimdə "oturum". Buradan dəniz də gözəl görünür, elə şəhər də. Burada özünü həm dənizin içərisində hiss edirsən, həm də sənə qucaq açan şəhərdə...

Dənizə baxıram. Səhərin bu çağında balıqçı qayıqları artıq dənizdə öz lövbərlərini salıblar. Onlar dənizin ortasında ovuc içi boyda görünürlər... Budur, "Sahil testləri"ndə çalışanlar... burada müsafir olanlar bir-bir görünməyə başlayırlar. Mənə bir nəfər yaxınlaşır. Barmaqlarının arasında közərən siqaret indiki məqamda mənə o qədər də xoş gəlmir. Özüm siqaret çəkən olsam da, Qara dənizin, Trabzonun sübh havası canıma, ürəyimə elə yayılır ki, onu siqaretlə uyğunlaşdıra bilmirəm. Yaxınlaşan insan şirin türk ləhcəsində "günaydın, əfəndim" söyləyir. Hiss edirəm ki, söhbət etmək marağındadı. Ona görə mən də həvəslə onu salamlayıram. Birbirimizi kifayət qədər anladığımızdan rahatca söhbətləşirik. Öyrənirəm ki, Kıprızdan gəlmiş nümayəndə heyətinin rəhbəridi. Trabzonda keçirilən tədbir üçün təşrif gətiriblər. Dediyinə görə, o, şəhər Bələdiyyə başqanıdı. Onunla birlikdə həm Bələdiyyə İdarə Heyətinin iki üzvü, həm də üç muxtarlığın sədri trabzona gəlib. Bir azdan həmsöhbət olduğum kıprızlı tanışımın dostları da sahilə gəlir. Onlarla da tanış olub mövzunu bir az da genişləndiririk. Təbii ki, mövzu Kıprız Türk Cümhuriyyətinin və bir də bizim Qarabağımızın problemləridi. Bu söhbətdə Türkiyədə keçirilən bələdiyyə seçkiləri də bir xətt kimi keçdi. Onlar da narahatlıqlarını ifadə etdilər. Və onu da vurğuladılar ki, bu, Türkiyənin daxili işi olsa da, amma bir qardaş, bir millət olaraq Türkiyənin uğurlarını daha çox arzu edirik, daha çox istəyirik.

Kıprızlı qonaqlar məni səhər çayına dəvət edirlər. Məmnuniyyətlə qəbul edirəm. Həm söhbətimizin maraqlı olması səbəbindən, həm də yolun yorğunluğunu daha tez canımdan çıxarmaq üçün onlara qoşuluram...

Bir azdan Əhməd bəyin telefonundan zəng gəlir. Telefonu açan kimi:

- Abi, bilirəm ki, uyumamısan. Qapıya çıx gəlirəm, gedək səhər yeməyi yeyək...

Doğrudan da Trabzonda olanda nələr keçirdiyimi, vaxtımı daha çox görməyə, gəzməyə sərf etdiyim Əhməd qardaşım iki dəqiqədən sonra "Sahil testləri"nə gəldi. Anladım ki, o elə yolda mənə telefon açıbmış. Mən də kıprızlı tanışlara üzrxahlıq edib onunla birlikdə səhər süfrəsi arxasında əyləşirəm. Çay içə-içə uşaqlardan, nəvələrdən, özümüzdən danışırıq. Bu arada Əhməd qardaşımın telefonuna zəng gəlir. Qəbulunda olacağım kardioloqun adından zəng vurub bildirirlər ki, həkim bu gün məni qəbul edə bilməyəcək, hüzrləri düşübdü. Ona görə vaxtı dəyişməyə məcburdular...

Bu xəbər mənim bir balaca "kefimə soğan doğrasa da" amma dostum sanki Trabzonda bir az da artıq qalacağıma sevindi.

Səsinin tempindən hiss etdim ki, o, bu gözəl ünvanı, bu gözəl şəhəri, onun çevrəsini mənə təqdim etməkdən ləzzət alır.

Və hər dəfə də məni yeni ünvanlara aparıb həmin yerlərin ziyarətçisi edəndə içimdən bir məmnunluq hissi keçir. Bax, bu dəfə də qardaşım Əhməd Varol:

- Abi, heç üzülmə, çıxıb dolaşarıq, şəhərdə təzə nələr olduğunu göstərərm sənə. Camidə dostlarımla çay içərsən, sonra köşkə qalxarıq. Daha sonra da ürəyin necə istəsə, o cür də işimizi quraraq - dedi.

Bəli, yemək süfrəsindən qalxıb sahilə düşürük. Bir az dolaşandan sonra Əhməd bəyin maşınıyla öncə onun iş yerinə, yəni muxtarlığa gəlirik. Burada fürsətdən istifadə edib internetdən yararlanıram. Təbii ki, mənim üçün ən maraqlı olanlardan biri internet vasitəsilə "Ədalət"in şah damarı olan Şamxal bəylə əlaqə qururam. Bir-birimizə sayqı və sevgiylə bilgilər veririk. Şamxal bəy ərklə deyir ki, "özünüzdən muğayat olun, mütləq həkimin qəbuluna düşün!"...

**... Əhməd bəyin maşınıyla Trabzonun Universitet məhəlləsinin çox möhtəşəm məkanlarından biri olan Qocatəpə camisinə gəlirik. Mənim gözlərimin önündə tikilib başa çatmış, yəni özülü qoyulan gündən açılışı olan zamana qədər hər səfərimdə görüb, ziyarət edib bilgiləndiyim bu caminin hocası da, burada namaz qılanların əksəriyyəti də artıq köhnə tanışlarıma çevrilib. Xüsusilə bu camini idarə edən hocam İbrahim Məzlum mənim üçün dünyanın pak adamları sırasında birinci yerdə dayanır. Onu dinə bağlılığı fanatik yox, ilahi bir sevgidir. O, işini Allahımıza, Peyğəmbərimizə bütün varlığından süzülüb gələn sevgiylə gerçəkləşdirir...**

**(ardı var)**